ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Təkrar sertifikatlaşdırmanın test imtahanı mərhələsi üzrə suallar toplusu

## İbtidai sinif

Azərbaycan dili

8 İYUN 2024-CÜ İL

**1. Hansı söz düzgün *yazılmamışdır*?**

*Yanlış cavablanma və ya boş qoyma: 37% - 1355 nəfər*

A) millət
B) zanbaq
C) təəccüb
D) faliyyət
E) şücaət

**2. Hansı sözdə hər iki sait qalın və dodaqlanandır?**

*Yanlış cavablanma və ya boş qoyma: 14% - 513 nəfər*

A) könül
B) soyuq
C) yemiş
D) dünya
E) surət

**3. Hansı cümlədəki feil gələcək zamandadır?**

*Yanlış cavablanma və ya boş qoyma: 23% - 842 nəfər*

A) Onun danışdıqlarının hamısı uydurma idi.
B) Uşaqlar həvəslə tamaşanı gözləyirdilər.
C) Bayırda güclü yağış yağır, gölməçələrin sayı artırdı.
D) Bu döyüşdə ədalət, dürüstlük zəfər çalacaq.
E) Günahkar insantək başını aşağı əymişdi.

**4. Hansı sözdə hərflərin sayı səslərin sayı ilə eynidir?**

*Yanlış cavablanma və ya boş qoyma: 22% - 806 nəfər*

A) Səidə
B) təbiət
C) dostluq
D) elan
E) maaş

**5. İsim+isim sxeminə uyğun söz birləşməsini müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 23% - 842 nəfər*

A) şirin alma
B) dalğalanan dəniz
C) taxta qapı
D) odlu söz
E) həmin mənzərə

**6. Hansı cümlədə çoxaltma dərəcəsində olan sifət işlənmişdir?**

*Yanlış cavablanma və ya boş qoyma: 47% - 1722 nəfər*

A) Hamı tələsik yığışıb onlara tərəf getdi.
B) Mərd oğullar cəsarətlə döyüşdülər.
C) O, qorxudan çox yavaş danışırdı.
D) Ağacdakı sarımtıl yarpaqlar tökülməyə başlamışdı.
E) Uşaqlar bapbalaca pişiyi görüb sevindilər.

**7. İsim və feilin birləşməsindən yaranan mürəkkəb sözü müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 37% - 1355 nəfər*

A) ayaqqabı
B) ağacdələn
C) dəvədabanı
D) itburnu
E) qarınqulu

**8. Hansı söz quruluşca düzəltmə *deyil*?**

*Yanlış cavablanma və ya boş qoyma: 57% - 2088 nəfər*

A) uçqun
B) evimiz
C) küçədəki
D) güclü
E) sənətkar

**9. Mürəkkəb cümləni müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 51% - 1868 nəfər*

A) Yağan yağış yolları yumuş, ağacları sulamış, quruyan otlara həyat vermişdi.
B) Anam qardaşımı çağırdı, lakin o eşitmədi.
C) O sənə bütün baş verənləri danışdı ki?
D) Biz hamımız ancaq sənə etibar edə bilərik.
E) Qardaşım həm skripka, həm də piano çala bilir.

**10. Hansı sözdə incə sait uzun tələffüz olunur?**

*Yanlış cavablanma və ya boş qoyma: 51% - 1868 nəfər*

A) məktəbli
B) gündəlik
C) maraqlı
D) xüsusi
E) ecazkar

**11. Verilmiş sözlərdən biri isimdən düzələn sifətdir:**

*Yanlış cavablanma və ya boş qoyma: 57% - 2088 nəfər*

A) hesabdar
B) dalandar
C) hökmdar
D) xəzinədar
E) əməkdar

**12. "Balina" sözünün fonetik təhlili ilə bağlı *düzgün* fikri seçin.**

*Yanlış cavablanma və ya boş qoyma: 56% - 2051 nəfər*

A) Yazılışı ilə tələffüzü fərqlənir.
B) Tərkibində sonor samitlər işlənmişdir.
C) İki qapalı, bir açıq sait işlənmişdir.
D) Vurğu sonuncu hecadadır.
E) Açıq sait incə və dodaqlanandır.

**13. Biri frazeoloji birləşmə *deyil*:**

*Yanlış cavablanma və ya boş qoyma: 34% - 1245 nəfər*

A) ağzına su alıb oturmaq
B) özünü itirmək
C) cana gəlmək
D) söz vermək
E) müəyyən etmək

**14. Mətni oxuyun və sualı cavablandırın.**

*Yanlış cavablanma və ya boş qoyma: 71% - 2601 nəfər*

**Qədim** zamanlarda insanlar bu **əqidə**də idilər ki, hər kəs anadan olanda çiyni **xurcun**lu doğulur. Hər kəs yaşadıqca öz **eyib**lərini xurcununun arxa gözünə, **hünər**ini isə ön gözünə toplar. Bu cəhətə görə insan öz eybini görməz – arxasında olduğu üçün, amma hünərini görər – gözünün qabağında gəzdirdiyi üçün.

**Fərqləndirilmiş hansı sözü verilmiş qarşılığı ilə əvəz etmək *olmaz?***

A) qədim – keçmiş
B) əqidə – düşüncə
C) xurcun – heybə
D) eyib – qüsur
E) hünər – güc

**15. Verilmiş sxemə uyğun *olmayan* variantı müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 63% - 2308 nəfər*

***söz - sinonim - antonim***

A) doğru - yanlış - səhv
B) böyük - iri - kiçik
C) hündür - uca - alçaq
D) ağıllı - dərrakəli - cahil
E) güclü - qüvvətli - zəif

**16. Hansı cümlədə qoşma işlənib?**

*Yanlış cavablanma və ya boş qoyma: 37% - 1355 nəfər*

A) O çox çalışqan insandır.
B) Şagirdlər bu gün gələcəkmi?
C) Onlar sabah kinoya gedəcək.
D) Qoy işimizi görək.
E) Uşaq evə tərəf qaçdı.

**17. *"Akif göl qırağına getməkdən balıq tutmaqdan zövq alırsanmı"* cümləsində durğu işarələrinin işlənmə ardıcıllığını müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 39% - 1429 nəfər*

A) vergül, vergül, nöqtə
B) vergül, vergül, sual
C) vergül, tire, sual
D) tire, vergül, nöqtə
E) tire, vergül, sual

**18. Eyniköklü sözləri müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 58% - 2125 nəfər*

A) bağdakı, bağban, bağın
B) güldan, gülüş, güllü
C) çayçı, çaydan, çayın
D) kömürçü, kömürü, kömürdə
E )sonuncu, sonluq, sondakı

**19. Verilmiş cümlədə tamamlıq nə ilə ifadə olunmuşdur?**

***Həkim xəstələrə diqqətlə qulaq asırdı.***

*Yanlış cavablanma və ya boş qoyma: 74% - 2711 nəfər*

A) isim
B) sifət
C) zərf
D) əvəzlik
E) say

**20. Omonimlik baxımından *uyğunsuzluğu* müəyyən edin.**

*Yanlış cavablanma və ya boş qoyma: 84% - 3077 nəfər*

A) kimi-əvəzlik, qoşma
B) say-feil, isim
C) buruq-sifət, isim
D) əkin-feil, isim
E) bir-say, ədat

**21. Verilmiş iki məlumata əsasən ortaq məqam hansıdır?**

| | |
|---|---|
| Dəniz tısbağası həyatını, demək olar, suda keçirir. Ancaq dişilərin yumurta qoymaq üçün sahilə çıxmaları vacibdir. Ana tısbağa sahildə dərin yalaq qazaraq oraya 100 və daha çox yumurta qoyub basdırır, sonra dənizə qayıdır. Yumurtadan çıxan balalar dənizə tez çatmasalar, quşların və yırtıcıların çənginə düşür. | Erkək ağcaqanadlar heç kəsi dişləmirlər. Onlar, əsasən, çiçək şirəsi ilə qidalanırlar. Lakin dişi ağcaqanadlara çiçək şirəsi bəs etmir. O, xortuma oxşar sərt iynəsini dəriyə sancır və qanı sorur. Qan ona öz yumurtalarını çıxara bilmək üçün lazımdır. O, yumurtalarını suya qoyur. |

*Yanlış cavablanma və ya boş qoyma: 65% - 2381 nəfər*

A) Heyvanların yaşayış məskənləri
B) Həyatda sağ qalmaq üçün aparılan mübarizə
C) Suda-quruda yaşayanların qidalanması
D) Heyvanların tələf olma səbəbi
E) Müxtəlif heyvanların çoxalması

**22. Verilmiş cümlə ilə bağlı yanlış fikri müəyyən edin.**

***Aysel yayda bacısının ona öyrətdiyi məsələləri sürətlə işlədi.***

***Yanlış cavablanma və ya boş qoyma: 78% - 2857 nəfər***

A) Cümlədə işlənmiş əvəzlik şəxs əvəzliyidir, yönlük haldadır.
B) Cümlədə həm tərzi-hərəkət, həm də zaman zərfi işlənmişdir.
C) Cümlədə təsdiqdə, nəqli keçmiş zamanda düzəltmə feil işlənmişdir.
D) Cümlədəki isimlərdən yalnız biri mənsubiyyət şəkilçisi qəbul etmişdir.
E) Cümlənin mübtədası konkret, xüsusi isimlə ifadə olunmuşdur.

**23. *“Özünü kəşf etməyən həyatı kəşf edə bilməz”* cümləsinin sintaktik təhlil qaydası hansı bənddə *doğru* verilib?**

***Yanlış cavablanma və ya boş qoyma: 65% - 2381 nəfər***

A) mübtəda, tamamlıq, xəbər
B) tamamlıq, mübtəda, xəbər
C) mübtəda, tamamlıq, tamamlıq, xəbər
D) tamamlıq, mübtəda, tamamlıq, xəbər
E) mübtəda, tamamlıq, mübtəda, xəbər

**24. *“Qarğalar ötməyə başlayanda bülbüllər susar”* cümləsinin sintaktik təhlil qaydası hansı bənddə *doğru* verilib?**

***Yanlış cavablanma və ya boş qoyma: 77% - 2821 nəfər***

A) zərflik, mübtəda, xəbər
B) mübtəda, xəbər
C) zərflik, tamamlıq, xəbər
D) mübtəda, tamamlıq, xəbər
E) mübtəda, xəbər, mübtəda, xəbər

**25. Mətni oxuyun və sualı cavablandırın.**

***Yanlış cavablanma və ya boş qoyma: 80% - 2930 nəfər***

1642-ci ildə Blez Paskal vergi müfəttişi işləyən atasının işini yüngülləşdirmək üçün ilk hesablama maşınını ixtira etdi. Hesab əməllərini yerinə yetirmək üçün Paskal abak lövhəsində daşları öz oxu ətrafında fırlanan çarxlarla əvəz etdi. O, çarxların üzərində rəqəmləri ifadə edən bölgülər düzəltdi. Paskalın bu maşını toplama üçün yararlı olsa da, vurma əməlini yerinə yetirə bilmirdi. 1833-cü ildə isə istedadlı ingilis alimi Çarlz Bebbis istənilən hesablamaları aparmağa qadir olan universal avtomatlaşdırılmış maşın layihəsini həyata keçirdi və onu “analitik maşın” adlandırdı.

**Hansı mülahizə *yanlışdır*?**

A) Paskal bütün hesab əməllərini yerinə yetirən ilk hesablama maşınını atasına kömək etmək üçün ixtira etmişdi.
B) Təxminən iki əsrdən sonra ixtira olunan analitik maşın Paskalın hesablama maşınının xələfi hesab oluna bilər.
C) Paskalın kəşfindən əvvəl müxtəlif hesablamalar aparmaq üçün abak adlanan alətdən istifadə olunurdu.
D) Daim hesablamalar aparmaq məcburiyyətində qalan Paskalın atası yeni mexanizmin tətbiqi ilə işini rahatlaşdırır.
E) Mətndə adı çəkilən üç qurğunun işləmə prinsipində həm oxşar, həm də fərqli məqamlar var.